Azərbaycan Respublikasının

Dövlət Turizm Agentliyi tərəfindən

2025-ci il üzrə turizm sahəsində Qrant müsabiqəsi ilə bağlı

# Elan

Dövlət Turizm Agentliyi (bundan sonra Agentlik) ölkəmizdə turizm potensialı yüksək olan kəndlərdə turizm infrastrukturunun inkişafı, regional turizmin təşviqi və prioritet bazarlar üçün xüsusi turizm məhsullarının yaradılması məqsədilə layihələrin qrant maliyyələşdirilməsini həyata keçirir.

Agentlik qrant müsabiqələrinin keçirilməsi zamanı öz fəaliyyətini əməkdaşlıq, qarşılıqlı məsuliyyət və hesabatlılıq prinsipləri əsasında qurur.

**Diqqət :** "Qrant humanitar, sosial, ekoloji, informasiya, nəşriyyat və s. sahələrdə elm, tədqiqat və layihələşdirmə proqramlarını, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər proqramları hazırlamaq və həyata keçirmək üçün nəzərdə tutulmuş qaydada göstərilən yardımdır. Qrant formasında verilmiş maddi yardımdan birbaşa **mənfəət** əldə etmək üçün istifadə edilməsi **qadağandır**."

*Ətraflı: "Qrant haqqında" Azərbaycan Respublikasının Qanunu*

## Mövzular

1. "Turistik kənd"lərdə* turizm infrastrukturunun yaxşılaşdırılması və turizm nümayiş obyektlərinin inkişaf etdirilməsi;
2. "Turistik kənd"lərdə tullantıların idarəedilməsinə infrastruktur dəstəyi, ətraf mühitə mənfi təsirlərin azaldılması istiqamətində təşəbbüslərin həyata keçirilməsi;
3. "Turistik kənd"lərdə turizm yönümlü fəaliyyətlərdə qadın və ya gənclərin dəstəklənməsi;
4. "Turistik kənd"lərdə yeni turizm təcrübələrinin və məhsullarının yaradılması.

* "Turistik kənd"lər dedikdə, Qəbələ rayonu Duruca kəndi, İsmayıllı rayonu İvanovka kəndi, Lerik rayonu Bibiyani kəndi, Quba rayonu Qrız kəndi və Astara rayonu Sım kəndi nəzərdə tutulur.

## Müsabiqədə kimlər iştirak edə bilər

- Bələdiyyələr, təhsil müəssisələri, qeyri-hökumət təşkilatları, təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş digər hüquqi şəxslər və Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxslər müsabiqədə iştirak etmək hüququna malikdirlər.

## Müsabiqədə iştirak etmək üçün ümumi tələblər

- Müsabiqə iştirakçısının hər müsabiqə çərçivəsində **yalnız bir layihə** təqdim etmək hüququ vardır.
- Müsabiqə iştirakçısının təqvim ili ərzində keçirilən müsabiqələr çərçivəsində təqdim etdiyi **yalnız bir layihənin** Agentlik tərəfindən maliyyələşdirilməsinə yol verilir.
- Digər müsabiqələr çərçivəsində maliyyələşdirilmiş, icrası davam edən və ya başa çatmış layihələr Agentlik tərəfindən əlavə və ya təkrar **maliyyələşdirilmir.**
- Müsabiqəyə təqdim olunmuş layihələrin məzmunu Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları, habelə Azərbaycan Respublikasının turizm sahəsində dövlət siyasətləri və Dövlət Turizm Agentliyinin Qrant qaydaları ilə ziddiyyət təşkil etməməlidir.

## Layihələrin maliyyələşdirilməsi və hesabatlılıq

- Qrant verilməsi nəzərdə tutulan layihələrlə bağlı Agentlik ilə qrant alan arasında müsabiqəyə təqdim olunmuş layihənin maliyyələşdirilməsi haqqında qrant müqaviləsi bağlanır.
- Müsabiqə iştirakçıları nəticələr dərc edildiyi tarixdən 10 gün ərzində müsabiqənin nəticəsindən Apellyasiya Komissiyasına şikayət verə bilərlər. Apellyasiya Komissiyası 15 gün ərzində şikayətə baxıb qərar qəbul edir.

## Layihələrin təqdim olunmasına dair tələblər

- Müsabiqədə iştirak etmək üçün aşağıdakı müsabiqə sənədləri təqdim olunmalıdır:
  1. Müsabiqədə iştirak etmək üçün ərizə (1 nömrəli Əlavə);
  2. Müsabiqəyə təqdim olunan layihə təklifi (2 nömrəli Əlavə);
  3. Layihənin icra planı (3 nömrəli Əlavə);
  4. Layihənin xərclər smetası (4 nömrəli Əlavə).

Qeyd: İnfrastruktur layihələri üçün əlavə smeta sənədi tələb oluna bilər.

- Müsabiqə sənədlərinə aşağıdakı müşayiətedici sənədlər əlavə olunmalıdır:
  1. Layihənin icrasına cəlb ediləcək əsas şəxlərin tərcümeyi-halı (CV) və işinin təsviri;
  2. Ərizəçi fiziki şəxs olduqda şəxsiyyətini təsdiq edən sənədin surəti;
  3. Ərizəçi hüquqi şəxs olduqda hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının və nizamnaməsinin surəti;
  4. Layihəyə tərəfdaş(lar) cəlb edildiyi təqdirdə, tərəfdaş(lar) ilə birgə fəaliyyətə dair imzalanmış müqavilə;
  5. Elan edilmiş müsabiqənin mövzusu və prioritet istiqamətlərə uyğun olaraq Agentlik tərəfindən müsabiqə elanı üzrə əlavə sənədlər tələb edilə bilər.
- Təqdim edilən sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, 5 (beş) iş günü müddətində bu barədə ərizəçiyə məlumat verilir. Ərizəçi göstərilən çatışmazlıqları aradan qaldırdıqdan sonra sənədlərin təqdim edilməsi üçün müəyyənləşdirilmiş son tarixə qədər onları yenidən təqdim edə bilərlər.
- Yalnız müsabiqənin tələblərinə uyğun təqdim olunmuş layihələr ekspertiza mərhələsinə buraxılır.

**Qeyd**: *Müsabiqəyə təqdim edilən sənədlər geri qaytarılmır.*

## Layihələrin müddəti

- Müsabiqəyə  təqdim olunmuş layihələrin icra müddəti səkkiz aydan çox olmamalıdır.

## Layihələrin məbləği

- Layihələrin məbləğinin dəyəri 50, 000 (əlli min) manatdan çox olmamalıdır.

## Layihə təkliflərinin qəbulu üçün son tarix

- Layihə təklifləri **3 mart 2025-ci il, saat 18:00-dək** aşağıdakı qeyd edilən formada Agentliyə təqdim edilə bilər.

## Layihənin təqdim edilmə forması

- Müsabiqə sənədləri müşayiətedici sənədlər ilə birlikdə layihələrin təqdim edilməsi üçün müəyyənləşdirilmiş son tarixdən öncə grants@tourism.gov.az elektron poçt ünvanına göndərilməlidir.

## Müsabiqə nəticələri

- Qrant qaliblərinin siyahısı Agentliyin rəsmi veb-saytında yayımlanacaq və qaliblərlə birbaşa əlaqə saxlanılaraq məlumat veriləcəkdir.